# MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI UĞURLU İNKİŞAF YOLUNDA

**Meliorasiya və su təsərrüfatı ölkənin milli iqtisadiyyatının, xüsusilə kənd təsərrüfatının, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının həllində mühüm rol oynayır.**

**Ölkəmizdə meliorasiya və irriqasiyanın inkişafı, bu sahədə aparılan islahatlar, böyük quruculuq işləri, geniş meliorasiya potensialının yaradılması və perspektiv proqramların qəbul edilməsi dünya siyasətinin tanınmış siması, müdrik və uzaqgörən siyasətçinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinin, zəhmət və siyasətinin bəhrəsi olmuşdur.**

Respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən mümkün olmadığını böyük uzaqgörənliklə qeyd etmiş və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik şəxsiyyət, ulu öndərimiz Heydər Əliyev bu sahəni daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət vermişdir.

Azərbaycanda meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərində, lakin onun genişmiqyaslı, intensiv inkişafına ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəldiyi 1969-cu ildən başlanılmışdır. Bu vaxtdan etibarən ölkənin kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə iqtisadiyyatın bütün sahələrində xüsusi bir yüksəliş dövrünə start verilmişdir. Ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul edildi. Bu qərarlarda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etmək məqsədilə kompleks meliorasiya proqramları hazırlandı və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə artırılması üçün mühüm tədbirlər işlənib həyata keçirildi. 1971-1975-ci illərdə ölkədə meliorasiya işlərinə 1966-1970-ci illərdəkinə nisbətən iki dəfədən çox vəsait ayrıldı. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verildi, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırıldı, 88 min hektar sahədə torpaqların yuyulması, o cümlədən 48 min hektarda əsaslı yuma, 110,3 min hektar sahədə suvarma şəbəkələrinin yenidənqurulması, 133,2 min hektar sahədə hamarlama işlərinin aparılması təmin olundu, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri yaradıldı. Bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz çayı üzərində həcmi 1,35 milyard kubmetr olan Araz su anbarı (su-elektrik stansiyası ilə birlikdə), Azərbaycan Respublikası və İran İslam Respublikası ərazilərində 400 min hektar sahəni suvaran Mil-Muğan hidroqovşağı, uzunluğu 37 km, sərfi saniyədə 80 kubmetr olan Baş Mil kanalı, ümumi uzunluğu 71 km olan Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də 6 min hektar sahəni suvaran Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda həcmi 3,5 milyon kubmetr olan Zoqolovoçay su anbarı və digərləri tikilib istismara verildi. Həmin dövrdə yerinə yetirilən tikinti işlərinin xarakterik cəhətlərindən biri onların yüksək texniki səviyyədə aparılması idi.

1976-1982-ci illərdə ulu öndərimiz Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində su təsərrüfatı və meliorasiya obyektlərinin tikintisi, torpaq fondunun sağlamlaşdırılması və suvarma-drenaj sistemlərinin yenidənqurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirildi. Bu illərdə meliorasiya tədbirlərinə yönəldilən vəsaitin miqdarı 1971-1975-ci illərdəkinə nisbətən 2,4 dəfə artdı, 605 min hektar sahədə suvarma sistemləri yenidən quruldu, 89,6 min hektar yeni suvarılan sahələr istifadəyə verildi, 137 min hektar torpaq meliorativ cəhətdən yaxşılaşdırıldı, 274,4 min hektar sahədə əsaslı hamarlama işləri aparıldı. Bu dövrdə Tərtərçay çayı üzərində 144 min hektar sahəni suvarma suyu ilə təmin edən həcmi 550 milyon kubmetr olan Sərsəng su anbarı (su-elektrik stansiyası ilə birlikdə), həcmi 5,86 milyon kubmetr olan Madagiz su anbarı, Naxçıvan MR-də Arpaçay çayı üzərində həcmi 150 milyon kubmetr olan Arpaçay su anbarı, Naxçıvan çayından qidalanan, həcmi 12,7 milyon kubmetr olan Sirab su anbarı, Füzuli rayonunda həcmi 9,5 milyon kubmetr olan Aşağı Köndələnçay su anbarı, Lənkəran rayonunda həcmi 52 milyon kubmetr olan Yuxarı Xanbulançay su anbarı kompleksi, Tovuz rayonunda nasos stansiyası və bir sıra digər obyektlər tikilib istismara verilmişdir. Bütün bunların nəticəsində respublikada kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı və ümumi məhsul istehsalı bir neçə dəfə artmışdır.

Müstəqillik dövrünün ilk illərində ölkədə bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də böhranlı vəziyyət hökm sürürdü. Böyük zəhmət və külli miqdarda vəsait hesabına yaradılmış qurğular, suvarma sistemləri qəza halına düşmüşdü, sahənin fəaliyyətinə və inkişafına ayrılan sərmayənin həcmi heçə endirilmişdi. Bizim böyük xoşbəxtçiliyimizdir ki, dövlətçiliyin bütün incəliklərini bilən bu əvəzsiz insan ölkənin ağır məqamında imdadımıza çatdı.

1993-cü ilin yayında ulu öndərimiz Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə meliorasiya və su təsərrüfatı sahəsi öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağıdılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ölkə iqtisadiyyatında yaranmış gərginliyə baxmayaraq, hər il meliorasiya su təsərrüfatı sistemlərinin istismarına müəyyən miqdarda vəsait ayrılaraq onların işlək vəziyyətdə saxlanılması üçün tələb olunan təmir-bərpa və təmizləmə işləri həyata keçirildi və bu vəsaitin həcmi ilbəil artırıldı.

Heydər Əliyevin qısa bir müddətdə həyata keçirdiyi titanik işlər bütün dünyanı heyran qoydu. Daxildən və xaricdən törədilən əngəllərə baxmayaraq, az vaxt ərzində ölkədə sabitlik yaradıldı. Əsas milli sərvətimiz sayılan yanacaq ehtiyatları hərəkətə gətirildi, dünyanın aparıcı ölkələrinin güclü maliyyə imkanlarına malik şirkətləri ilə 30 il müddətinə "Əsrin müqaviləsi" bağlanıldı və beləliklə, iqtisadiyyatın bütün sahələrində islahatlara geniş meydan açıldı.

Aqrar sahədə aparılan islahatlarla paralel olaraq meliorasiya və su təsərrüfatında da islahatların aparılmasına başlanıldı. İlk növbədə islahatların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ-hüquqi sənəd hazırlandı. 1996-cı ildə "Meliorasiya və İrriqasiya haqqında", 1997-ci ildə "Azərbaycan Respublikasının Su Məcəlləsi", 2003-cü ildə "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" qanunlar qəbul edildi.

"Meliorasiya və İrriqasiya haqqında" Qanunla meliorasiya və irriqasiya sahəsində fəaliyyətin əsas istiqamətləri və prinsipləri, meliorasiya və irriqasiya obyektlərinin mülkiyyət hüququ müəyyənləşdirildi. Azərbaycan Respublikasının "Su Məcəlləsi" ölkəmizdə su münasibətlərinin tənzimlənməsi yolunda uğurlu bir addım olmuşdur.

Azərbaycan meliorativ fondunun əksər hissəsi dövlət əhəmiyyətli meliorasiya və su təsərrüfatı obyektləri və onların istismarı müəssisələri olduğundan, su anbarları, rayonlararası magistral kanallar və kollektorlar, təsərrüfatlararası suvarma kanalları və kollektorlar, selötürücülər, iri nasos stansiyaları, hidroqovşaqlar, qışlaqların su təminatı sistemləri, Kür-Araz və dağ çayları boyunca mühafizə bəndləri, irriqasiya meşə zolaqları, rejim müşahidə quyuları, istismar müəssisələri və özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin sırasına daxil edildilər.

Ulu öndərimiz Heydər Əliyevin idarəetmə işinin təkmilləşdirilməsi ilə bağlı verdiyi göstəriş və tövsiyələri rəhbər tutaraq, Meliorasiya və Su Təsərrüfatı ASC-nin (o dövrdə Komitə idi) mərkəzi aparatı və yerli idarəetmə orqanlarının yeni strukturu və yeni əsasnaməsi hazırlandı. "Meliorasiya və irriqasiya haqqında" Qanuna uyğun 1997-ci il yanvarın 1-dən respublikada mərhələmərhələ sudan pullu istifadəyə keçilməsinə başlanıldı.

Suvarma suyunun paylanmasını, sudan səmərəli istifadə olunmasını, su ödənişlərinin toplanmasını təmin etmək, sudan istifadə zamanı meydana çıxan mübahisələri və digər məsələləri həll etmək məqsədilə könüllülük prinsipləri əsasında torpaq mülkiyyətçiləri və su istifadəçiləri tərəfindən yerlərdə Sudan İstifadəedənlər birlikləri yaradılmasına başlanıldı. Müəyyən təşkilati çətinliklərin olmasına baxmayaraq, görülmüş tədbirlər nəticəsində respublika üzrə Sudan İstifadəedənlər birliklərinin yaradılması başa çatdırılmış, bütün suvarılan sahələri əhatə edən 547 SİB yaradılmışdır.

Hazırda Səhmdar Cəmiyyəti tərəfindən istismar olunan suvarma və kollektor-drenaj şəbəkələrinin böyük əksəriyyəti əvvəllər kolxoz, sovxoz və digər kənd təsərrüfatı müəssisələrinin balansında olmuş daxili təsərrüfat sistemləridir. Respublikamızda aparılan aqrar islahatlar nəticəsində kolxoz, sovxoz və digər kənd təsərrüfatı müəssisələri ləvğ olunduqdan sonra bu şəbəkələr bir müddət sahibsiz qaldığından və baxımsızlıq üzündən istismara yararsız vəziyyətə düşmüşdü. Bir çox şəbəkələr, xüsusilə dəmir-beton novlu suvarma və qapalı şəbəkələr dağılıb sıradan çıxmışdı.

Respublika Nazirlər Kabinetinin müvafiq qərarına əsasən bu şəbəkələr 2000-ci ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansına götürüldü və onların təmir-bərpasına və təzimlənməsinə başlanıldı. Təsərrüfatdaxili suvarma və kollektor-drenaj sistemlərinin dövlət himayəsinə götürülməsi Ulu Öndərimizin respublikada sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsi olmaqla, bu sistemlərin tamamilə məhv olması təhlükəsini aradan qaldırdı.

İstismar tədbirləri və əsaslı təmir hesabına bu şəbəkələrdə hər il müəyyən həcmdə təmizləmə işləri aparılır və onların normal istismarı təmin edilir. Hər il 3,5 min km-dən artıq kollektor-drenaj şəbəkələri, 11 min km-dən çox suvarma kanalları lildən təmizlənir, onların üzərində 6 mindən artıq hıdrotexniki qurğu, mindən çox hidropost, 3 min ədəddən çox subartezian quyusu nasoslarının təmiri işləri yerinə yetirilir.

Ulu öndərimizin göstərişləri əsas tutularaq, xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Sahəyə investisiya qoyuluşnun səmərəliliyini

təmin etmək məqsədi ilə tikintisi yarımçıq qalmış 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün son dərəcə vacib olan üç obyektin (Baş Mil-Muğan kollektorunun tikintisi, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması və Naxçıvan MR-də Vayxır su anbarının tikintisi) birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Baş Mil-Muğan kollektorunun tikintisnə 1985-ci ildə başlanılmış və onun ümumi uzunluğundan 90 km-lik birinci hissəsinin tikintisi 1994-cü ildə, 52,7 kilometr uzunluğunda 2-ci hissəsinin tikintisi İslam İnkişaf Bankının güzəştli krediti və respublikanın büdcə vəsaiti hesabına 2000-ci ildə başa çatdırılmışdır.

Kollektorun 3-cü hissəsinin tikintisi Dünya Bankının maliyyələşdirilməsi ilə 2006-cı ilin birinci yarısında başa çatdırılmışdır. Bu layihə çərçivəsində Baş Mil-Muğan kollektorunun Araz çayı ilə kəsişməsində dükerin və körpünün tikintisi təmin edilmişdir.

Eyni zamanda, Baş Şirvan kollektoruna tökülən Mil-Qarabağ kollektorunun Baş Mil-Muğan kollektoruna birləşdirilməsi nəticəsində Baş Şirvan kollektorunun yüklənməsi xeyli azalmışdır ki, bu da öz növbəsində Şirvan bölgəsində suvarılan torpaqların meliorativ vəziyyətinə və Baş Şirvan kollektorunun iş rejiminə müsbət təsir göstərmişdir.

Kollektorun tikintisinin tam başa çatdırılması ilə bu bölgədə əkin sahələrinin xeyli genişləndirilməsinə, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi hesabına ümumi məhsul istehsalının artırılmasına, mal-qaranın etibarlı yem bazası ilə təmin olunmasına və 500 min hektardan artıq sahənin təkrar şoranlaşmasının qarşısının alınmasına imkan yaranmışdır.

Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinə daxil olan Samur Baş suqəbuledici qurğusunun bərpası işləri 2002-ci ildə, 185,7 km təsərrüfatlararası kanalların yenidənqurulması və Baş Sudurulducu qurğusunun və Xanarx kanalının tikintisi işləri 2006-cı, Samur-Abşeron kanalının Vəlvələçay çayına qədər olan 50 km-lik hissəsinin bərpası 2007-ci ildə başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikasının Vayxır su anbarının tikintisinin davam etdirilməsinə 2002-ci ildə başlanılmış və 2005-ci ildə tikilib istismara verilmişdir. Adları çəkilən bu obyektlərdən başqa, məhz Ulu Öndərimizin şəxsi təşəbbüsü və yaxından köməkliyi ilə meliorasiya və su təsərrüfatı sahəsi üzrə iri həcmli işlərin reallaşmasına aid çoxsaylı fakt sadalamaq olar.

Dövlət büdcəsindən əsaslı vəsait qoyuluşu hesabına bütövlükdə 1993-2003-cü illərdə əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə 12530 poqonmetr suvarma kanalları və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün 369200 metr kollektor-drenaj şəbəkəsi tikilmiş və bərpa edilmiş, çaylarda sel və daşqın təhlükəsizliyinin qarşısının alınması üçün 14603 metr mühafizə bəndləri tikilib istifadəyə verilmişdir.

Bu gün biz fəxrlə deyə bilərik ki, Azərbaycanda meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, bu sahə üzrə həyata keçirilmiş əzəmətli işlərin və əldə edilmiş nailiyyətlərin həm müəllifi, həm də təşkilatçısı Heydər Əliyevdir. Eləcə də əvvəlki illərdə həyata keçirilmiş meliorativ quruculuq işləri nəticəsində respublikamızda 53 min km suvarma kanalları, 31 min 578 km kollektor-drenaj şəbəkələri, 116 min 695 hidrotexniki qurğu, 135 su anbarı, 16 hidroqovşaq, 978 nasos stansiyası, 7 min 693 subartezian quyusu, 2037 km mühafizə bəndləri, 3 min 40 km boru kəmərlərindən ibarət muasir tələblərə cavab verən nəhəng meliorasiya və su təsərrüfatı kompleksi yaradılmışdır. Suvarılan sahələr 1432,8min hektara, meliorasiya olunmuş sahələr 609,4 min hektara çatdırılmışdır.

Fəxr etməyə dəyər ki, Ulu Öndərimizin qurub-yaratdığı müstəqil Azərbaycan Respublikası bu gün etibarlı əllərdədir. Prezident kimi fəaliyyət göstərdiyi dövrdə cənab İlham Əliyev sübuta yetirdi ki, o, ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə ölkəmizi yeni epoxanın işığında hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini göstərmişdir. Artıq hər kəsə yaxşı bəllidir ki, Azərbaycan Respublikasının Prizdenti İlham Əliyev dünyada XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisidir.

Prezident İlham Əliyev sözün həqiqi mənasında, görkəmli dövlət xadimi kimi, dövlətə rəhbərlik etməyin şərəf və məsulliyyətini uğurla birləşdirir. O, müstəqil Azərbaycan dövlətini həm mükəmməl şəkildə idarə edir, həm də istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək şəkildə gerçəkləşdirir. Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə inkişaf etdirilərək Avropa standartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirməsi də Prezident İlham Əliyev siyasətinin əsasıdır.

2007-ci il noyabr ayının 8-də Taxtakörpü su anbarının, 2009-cu ilin may ayının 25-də Şəmkirçay su anbarının SES-lə birlikdə təməlqoyma, 2010-cu ilin aprel ayının 29-da Cəlilabad rayonunda tikintisi başa çatdırılmış Göytəpə su anbarının və 15 avqust 2011-ci il tarixində Vəlvələçay-Taxtakörpü kanalının 10,7 km-lik birinci mərhələsinin açılış mərasimlərində iştirak etməsi, Taxtakörpü su anbarında tikintinin gedişi ilə tanış olaraq tikinti işlərinin yüksək keyfiyyətlə başa çatdırılması üçün tapşırıq və tövsiyələrini verməsi bunun bariz sübutudur. 2011-ci il noyabr ayının 16-da Qax rayonunda Hamamçay çayı üzərində tikilmiş körpünün açılış mərasimlərində iştirak etməsi və İlisu kəndinin sel və daşqın sularından mühafizəsi üzrə aparılan sahilbərkitmə işləri ilə tanış olması, 2013-cü il iyulun 19-da Dövlət Neft Fondunun vəsaiti hesabına tikintisi başa çatdırılmış Vəlvələçay-Taxtakörpü kanalının ikinci mərhələsinin istifadəyə verilməsi və Taxtakörpü su anbarının su ilə doldurulmasına başlanılması, iyul ayının 18-də Siyəzən,19-da Şabran şəhərlərində, 14 avqust tarixində İsmayıllı və 4 sentyabr tarixində Yardımlı şəhərlərində içməli su xəttinin və kanalizasiya şəbəkəsinin bərpası və tikintisi işlərinin birinci mərhələsinin, sentyabr ayının 28-də Taxtakörpü su anbarının (su elektrik stansiyası ilə birlikdə) və ondan su götürən Taxtakörpü-Ceyranbatan kanalının istifadəyə verilməsi, cari ilin 15 noyabr tarixində Şəmkirçay su anbarının (su elektrik stansiyası ilə birlikdə) açılış mərasimlərində iştirak etməsi də cənab Prezidentin ölkədə meliorasiya və su təsərrüfatı sisteminin inkişafına olan ardıcıl diqqət və qayğısından xəbər verir.

Dövlətimizin başçısının sahəyə diqqət və qayğısının nəticəsi olaraq son illərdə sahəyə əsaslı kapital qoyuluşu 48 dəfəyə yaxın artmışdır. Bunun nəticəsində mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, sistem üzrə işçilərin əmək haqqı 9,3 dəfə artmış, sahənin maddi-texniki bazası gücləndirilmiş, 2 mindən artıq maşın və mexanizm alınmış, onların məhsuldarlığı 2001-ci il ilə müqayisədə 2 dəfəyə yaxın artmışdır. 2565 km suvarma kanallarının, 1719 km kollektor-drenaj şəbəkələrinin bərpası, yenidənqurulması və tikintisi işləri həyata keçirilmiş, 171,4 min hektar suvarılan torpaqların su təminatı və 178,2 min hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. 30 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 1194 ədəd subartezian quyusu qazılmış, sel və daşqınlara qarşı dağ çaylarında 195,3 km sahilbərkitmə işləri, Kür-Araz çaylarında isə 876 km uzunluğunda bəndlərin möhkəmləndirilməsi və hündürləndirilməsi işləri yerinə yetirilmişdir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti üzrə 2014-cü il ərzində bütün mənbələrdən, o cümlədən büdcə vəsaiti, xarici investisiyalar, Dövlət Neft Fondundan ayrılmış vəsaitlər hesabına 60 ədəd keçid və 7 ədəd yeni obyektdə layihələndirmə və əsaslı tikinti-quraşdırma işləri aparılmışdır. Dünya Bankının krediti ilə həyata keçirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə" çərçivəsində respublikanın 8 rayonunda (Şabran, Siyəzən, Ağsu, İsmayıllı, Masallı, Yardımlı, Cəlilabad və Lerik) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir. Layihə çərçivəsində 160,8 kilometr uzunluğunda kanalizasiya xətləri çəkilmiş və 1 ədəd 1500 kubmetr həcmində su anbarı tikilmişdir.

Eyni zamanda, bankın krediti ilə "Sudan İstifadəedənlər birliklərinin İnkişafına Dəstək Layihəsi" çərçivəsində İmişli, Saatlı, Sabirabad, Ağcabədi, Beyləqan, Goranboy, Qusar, Qax, Balakən, Qəbələ, Zərdab, Xaçmaz və İsmayıllı rayonlarında yerləşən Sudan İstifadəedənlər birliklərinin ərazilərində 56357 hektar torpaq sahəsində suvarma və drenaj şəbəkələrinin bərpası, yenidənqurulması işləri davam etdirilmişdir.

Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına Samur-Abşeron suvarma sisteminin yenidənqurulması layihəsinə daxil olan ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının SES-lə birlikdə, uzunluğu 31,77 kilometr olan Vəlvələçay-Taxtakörpü və uzunluğu 107,93 kilometr olan Taxtakörpü-Ceyranbatan kanallarının tikintisi 2013-cü ildə başa çatdırılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən tikilmiş obyektlər Dövlət Qəbul Komissiyasının 12 noyabr 2014-cü il tarixli aktı ilə istismara qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari il iyulun 22-də Xızı rayonuna səfəri çərçivəsində "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi daxilində Xızı rayonunun torpaqlarına yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suyun yeni suvarılan sahələrə verilməsi üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak etmişdir.

Qazax rayonunun Kəmərli, Aslanbəyli, Xanlıqlar, İkinci Şıxlı və Qaymaqlı kəndlərinin, sərhədyanı Abbasbəyli, Alpout, Fərəhli, Ürkməzli kəndlərinin, Ağcabədi rayonunun Nəcəfqulubəyli, Tovuzçay su anbarından rayonun əkin sahələrinə suvarma suyunun verilməsi və Ağdam rayonunun Ergi massivinin su təminatının yaxşılaşdırılması üçün nasos stansiyasının, təzyiqli boru kəmərlərinin tikintisi işləri davam etdirilmişdir.

Eyni zamanda, Tovuz rayonunda Tovuzçay su anbarında, Şəki rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Cəyirli su anbarının yenidənqurulması, Cəlilabad rayonunda İncəçay su anbarının təmir-bərpasına başlanılmış, Füzuli rayonunun Mollaməhərrəmli, Arayatlı və Babı kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üzrə nasos stansiyasının tikintisi işləri yerinə yetirilmişdir.

Şəmkirçay çayı üzərində "dəryaçanın tikintisi" kompleksi layihəsinə daxil olan tikintilər başa çatdırılmış, Şəmkirçay su anbarının Su elektrik stansiyası ilə birgə 15 noyabr 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılış mərasimi olmuşdur. Su anbarının əsas göstəriciləri : gil nüvəli, daş-qaya tökmə tipli bəndinin hündürlüyü—196 metr, qaşının uzunluğu—692 metr, qaşının üstdən eni 12 metr, güzgü sahəsi—375 hektar, ümumi su tutumu 164,5 milyon kubmetr və faydalı həcmi 156,3 milyon kubmetrdir. Su elektrik stansiyasının gücü—24438 MVt, illik enerji hasilatı 56 milyon, kVt saatdır.

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2014-cü il tarixli Sərəncamı ilə respublikanın 32 rayonunun 223 yaşayış məntəqəsində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün cari ildə 250 ədəd və eyni zamanda, Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə 55 ədəd subartezian quyusunda qazma işləri başa çatdırılmışdır. Qazılmış quyuların vasitəsi ilə 4600 hektar sahədə su təminatı təmin olunmuşdur.

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi ilə bağlı Abşeron magistral kanalının 12414 metr hissəsində yenidənqurma işləri aparılmışdır.

Respublikanın ən təhlükəli hesab olunan çaylarında sel və daşqınlara qarşı mühafizə bəndlərinin tikintisi işləri həyata keçirilmişdir. Ölkə ərazisindəki Göyçay çayı, Ağsuçay, Tərtərçay, Ağstafaçay, Daşağılçay, Oğuzçay, Şinçay, Kişçay, Künğütçay, Muxaxçay, Katexçay, Balakənçay, İnterçay, Zəyəmçay, Kürmükçay, Mazımçay, Zərnəçay, Hamamçay, Alazançay, Pensərçay, Qudyalçay, Qusarçay, Samurçay, Vəlvələçay, Qarqarçay və Dəmiraparançay çaylarında 7604 metr uzunluğunda sahilbərkitmə işləri (dəmir-beton, daş-beton, beton, daş tökmə) yerinə yetirilmişdir. Bundan əlavə, Türyançay çayının məcrasında 3100 metr uzunluğunda məcratəmizləmə işi görülmüşdür. Araz çayında 1927 metr uzunluğunda mühafizə dambasının tikintisi işləri aparılmışdır.

Astara rayonunda Ləvain su anbarında, Göyçay rayonu ərazisində Göyçay çayında baş sugötürücü qurğuda və Şirvan şəhərinin ərazisində Baş Şirvan kollektorunda qəza vəziyyətinin aradan qaldırılması üzrə işlər başa çatdırılmışdır.

Füzuli və Ağcabədi rayonlarının inzibati ərazilərində müvafiq olaraq 750,0 hektar və 975,0 hektar dövlət ehtiyat fondu torpaqlarında iri taxılçılıq təsərrüfatlarının yaradılması üçün Yuxarı Mil kanalının 342+70-ci piketində 4 aqreqatlı nasos stansiyasının, Hacıqabul rayonunun Muğan qəsəbəsinə və Qarasu kəndinə suyun verilməsi üçün Hacıqabul magistral kanalının qalan 4300 metr uzunluğunda hissəsinin və Padar magistral kanalının tikintisi işləri aparılmışdır.

Eyni zamanda bu tədbir daxilində "Neftçala magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi" obyekti üzrə Aşağı Surra kəndinin 967 hektar torpaq sahəsinin su təminatının yaxşılaşdırılması üçün nasos stansiyasının xarici elektrik təchizatı üzrə işlər aparılmış, kanalın 376 metr hissəsində beton və torpaq işləri görülmüşdür. "Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması"nın (Sabirabad rayonu üzrə) işçi layihəsinin və tender sənədlərinin hazırlanması üçün layihəçi şirkətin seçimi üzrə işlər yerinə yetirilmiş və hazırda layihə sənədlərinin hazırlanmasına başlanılmışdır.

Səhmdar Cəmiyyət meliorasiya və irriqasiya sistemlərinin istismarının lazımi səviyyədə təşkili, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, inkişafı, sel və daşqın sularının zərərli təsirinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi sahəsində fəaliyyətini uğurla davam etdirir.

Xalqın taleyüklü problemlərini həll etmək zərurəti əbədi liderimizi zirvəyə ucaltmış, doğma xalqını da ardınca aparmağa sövq etmişdir. Bunun müqabilində Azərbaycan xalqı da Heydər Əliyev dühasından bəhrələnərək mənən güclənmiş, siyasi və iqtisadi inkişaf yolları ilə irəliləmiş, öz işıqlı gələcəyini təmin etməyə qadir olduğunu sübuta yetirmişdir. Sonrakı dönəmdə ulu öndərimizin siyasi varisi Prezident İlham Əliyev onun ideyalarını uğurla davam və inkişaf etdirmişdir.

Dövlətimizin və onun başçısı cənab İlham Əliyevin diqqət və qayğısına söykənən, ulu öndərimizin müəyyən etdiyi kursa həmişə sadiq olan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, onun çoxminli kollektivi qarşılarına qoyulmuş vəzifələri uğurla yerinə yetirmək üçün bundan sonra da səylə çalışacaqlar.

**Əhməd ƏHMƏDZADƏ,**
**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri.**